Hörmətli Nəriman müəllim!

Sizi - görkəmli Xalq şairimizi, zəngin ənənələrə malik olan müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsini, 90 illik yubileyiniz münasibətilə təbrik etməkdən məmnunluq duyuruq.

Siz öz oxucuları ilə "ürək dilində" danışmağı, ən kövrək və munis duyğuları dilləndirməyi bacaran söz ustadlarından birisiniz. Sizin zərif sevgi lirikanız gənclərimizin ürəyinə yol tapmışdır.

44 günlük Vətən müharibəsində qələminizi süngüyə çevirib "müsəlləh əsgər" kimi xalqımızı mənfur düşmən üzərində qələbəyə çağırırdınız. Ali Baş Komandanımız cənab İlham Əliyevə həsr etdiyiniz Zəfər nəfəsli misralarımız Prezidentimizə ümumxalq sevgisini ifadə edir.

Əziz və sevimli Nəriman müəllim!

Sizi - böyük şairimizi 90 illik yubileyiniz və dövlətimizin ali mükafatına - "İstiqlal" ordeninə layiq görülməyiniz münasibətilə ADNSU-nun professor-müəllim heyəti və tələbləri, şəxsən öz adımdan ürəkdən təbrik edir, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

Hörmətlə,

*ADNSU-nun rektoru, professor* **Mustafa BABANLI**